NƏBZ

# "Azərbaycanın dinamik və hərtərəfli inkişafı struktur islahatlarının həyata keçirilməsini zəruri edir"

## GÖVHƏR BAXŞƏLİYEVA: "PREZİDENT İLHAM ƏLİYEVİN APARDIĞI STRUKTUR İSLAHATLARI İDARƏETMƏDƏ SƏMƏRƏLİLİYİN VƏ ÇEVİKLİYİN DAHA DA ARTIRILMASINA XİDMƏT EDİR"

## POLİTOLOQ: "DÖVLƏT İDARƏETMƏ SİSTEMİNDƏ STRUKTUR İSLAHATLARI AZƏRBAYCANIN İNKİŞAF DİALEKTİKASINA UYĞUNDUR"

**PREZİDENT İlham Əliyevin apardığı struktur islahatları idarəetmədə səmərəliliyin və çevikliyin daha da artırılmasına xidmət edir. Bunu Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva deyib.**

G.Baxşəliyeva bildirib ki, Azərbaycanın dinamik və hərtərəfli inkişafı struktur islahatlarının həyata keçirilməsini zəruri edir: "Bu gün ölkəmiz dinamik və hərtərəfli inkişaf edir və bu baxımdan idarəetmənin müasir tələblərə uyğunlaşdırılması, eyni zamanda, səmərəliliyin və çevikliyin təmin edilməsi məqsədilə mütəmadi olaraq struktur islahatlarının aparılması mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə struktur islahatları əvvəlki illərdə də aparılıb və bu günə qədər həyata keçirilən dərin hüquqi və institusional islahatlar öz bəhrəsini verməkdədir. Hazırkı islahatlar da əldə edilən nailiyyətlərin davamlılığını təmin etmək və müasir dünyanın çağırışlarına cavab vermək məqsədi daşıyır".

Deputat əlavə edib ki, məhz səmərəli dövlət idarəetmə aparatı cənab Prezidentin tapşırıqlarına uyğun olaraq məhdud resurslardan istifadə etməklə maksimum nəticə əldə edə bilər: "Struktur islahatları institusional və tənzimləyici çərçivəni iqtisadiyyatın tarazlı inkişafına xidmətə yönəldir".

G.Baxşəliyeva vurğulayıb ki, struktur islahatları nəticə etibarilə məhsuldarlığın artırılması, ölkəyə daha çox investisiya cəlbi deməkdir: "Əlbəttə ki, struktur islahatları ölkəmizdə biznes mühitinin daha da yaxşılaşmasına, dövlət xidmətlərinin daha əlçatan və keyfiyyətli olmasına xidmət edəcək. Belə olan halda isə Azərbaycan yeni investisiyalar üçün daha cəlbedici olacaq. Bütün bunlar isə nəticə etibarilə iqtisadi inkişafa, yeni iş yerlərinin açılmasına, insanlarımızın rifah halının yaxşılaşmasına xidmət edəcək".

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Elşad Mirbəşiroğlu isə deyib ki, yanvarın 14-də Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı fərmanlara əsasən dövlət idarəetmə sistemində həyata keçirilən struktur islahatları Azərbaycanın inkişaf dialektikasına uyğundur. Onun sözlərinə görə, bu islahatlar dövlət idarəçiliyinin təkmilləşdirilməsi və optimallaşdırılması istiqamətində aparılan inzibati islahatların növbəti mərhələsidir: "Sözsüz ki, dövlət idarəçiliyi sistemində həyata keçirilən istənilən xarakterli islahatlar mövcud reallıqlarla uzlaşmalıdır. Bu baxımdan Azərbaycanın gündən-günə artan iqtisadi potensialı, həmçinin ölkənin xarici müstəvidəki fəallığında müşahidə olunan yüksək dinamizm cəmiyyət həyatında müasir və çevik dövlət idarəçiliyinin reallaşdırılmasını tələb edir. Azərbaycan cəmiyyətində müşahidə olunan dərin sosial-iqtisadi dəyişikliklər bu dəyişikliklərə adekvat idarəetmə prinsiplərinin tətbiq olunması ilə yanaşı, həm də ciddi struktur islahatlarının həyata keçirilməsini tələb edir. Qeyd edim ki, yanvarın 11-də keçirilmiş Nazirlər Kabinetinin iclasında dövlət idarəetməsində struktur islahatlarının anonsu Prezident İlham Əliyev tərəfindən verilmişdi. Bunun ardınca ölkə Prezidenti tərəfindən müvafiq fərmanın imzalanması bir daha sübut etdi ki, Azərbaycan Respublikasının dövlət idarəçiliyində zamanın reallıqlarına uyğun olaraq, mühüm islahatların aparılması və davamlı olması ümumi dövlət siyasətinin mərkəzi trendini təşkil edir. Bununla yanaşı, bir daha şahidi olduq ki, Azərbaycan Respublikasında dövlət idarəetmə sistemində həyata keçirilən islahatların başlıca istiqamətini bu sistemin modernləşdirilməsi, daha çevik olması yönündə addımların atılması təşkil edir".



Politoloq əlavə edib ki, struktur islahatlarının aparılması bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da dövlət idarəetməsi sistemində inzibati islahatların mühüm istiqamətlərindən birini təşkil edir. Biri-birilərinin fəaliyyətini təkrarlayan və ümumiyyətlə, fəaliyyətini Azərbaycanın müasir inkişaf dialektikası ilə uzlaşdıra bilməyən dövlət orqanlarının ləğv edilməsi idarəetmənin optimallaşdırılması istiqamətində olduqca mühüm addımdır. E.Mirbəşiroğlu bildirib ki, idarəetmə sistemində struktur islahatlarının aparılması vəsaitlərə qənat olunmasının və bürokratiyanın qarşısının alınmasının ən effektiv mexanizmlərindən biridir.

Onun sözlərinə görə, bundan əvvəl də ölkəmizdə idarəetmənin optimallaşdırılması və səmərəliliyinin artırılması istiqamətində aparılan inzibat islahatlar nəticəsində bir sıra eyni və oxşar funskiyaları yerinə yetirən strukturların birləşdirilməsi və səlahiyyətlərinin başqa strukturlara verilməsi təmin edilib: "Məsələn, 2015-ci ilin fevralında Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv olunub və onun funksiyaları digər müvafiq dövlət orqanları arasında bölüşdürülüb və s. Bu baxımdan bir daha hesab edirəm ki, ölkə Prezidenti tərəfindən həyata keçirilən struktur islahatları dövlət idarəçiliyinin daha da təkmilləşdiriməsi, çevikliyinin artırılması, vətəndaşlara göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və dövlət vəsaitlərinə qənaət olunması baxımından zamanında atılmış strateji addımdır".

***Emin***